# DÖVRÜMÜZÜN YENİLMƏZ DAHİSİ

**Hər dəfə Milli Qurtuluş Günü astanamıza qədəm qoyanda sevinirik, fərəhlənirik, Vətənimizin nailiyyətləri ilə haqlı olaraq öyünürük. Ona görə tükənməz fərəh və iftixar hissi keçiririk ki, azad ölkənin azad vətəndaşlarıyıq, dünyanın xalqları arasında özümüzə məxsus yerimiz, mövqeyimiz var.**

Biz həm də dərin iftixar və razılıq duyğuları ilə qeyd edirik ki, müstəqil dövlətimizin təşəkkül tapmasında, dirçəlib ayaq üstə durmasında və inkişaf etməsində ümummilli liderimiz Heydər Əliyevin rolu misilsizdir, ulu öndərimiz bugünkü azad və demokratik respublikamızın yaranması üçün ən böyük zəhməti çəkib, dağlar boyda ağırlığı çiyinlərinə götürüb.

Respublikamız ən çətin məqamlarda – 1993-cü ildə özünün xilas yolunu müdrik rəhbərimizin dərin zəkası, uzaqgörənliyi sayəsində tapdı, onun göstərdiyi yolla gedərək ən qorxunc siyasi və iqtisadi böhranların məngənəsindən qurtardı. Müstəqilliyimizin ilk illərində səriştəsiz rəhbərlər, şəxsi mənafeyini güdən dırnaqarası xadimlər böyük zəhmət bahasına yaradılmış bu təmələ ağır zərbə vurdular.

Azərbaycan xalqının Heydər Əliyev irsinə sədaqəti, onun siyasətinin və müəyyən etdiyi strateji inkişaf kursunun alternativsizliyi birmənalı şəkildə qəbul etməsi ulu öndərimizin parlaq ideyalarının həmişəyaşarlığına dəlalət edir. Onu da qeyd etmək vacibdir ki, dahi rəhbərimizin zəngin irsi, hərtərəfli düşünülmüş strategiyasının həyata keçirilməsində varislik faktoru çox mühüm rol oynayır və fikrimcə, möhtərəm Prezidentimizin fəaliyyəti bunu dəfələrlə təsdiq etmişdir. Cənab İlham Əliyevin müasir Azərbaycan siyasətində uğurlu fəaliyyəti mahiyyət etibarilə Heydər Əliyev siyasətinin məntiqi davamı və yeni bir keyfiyyətlə inkişaf etdirilməsidir.

Ulu öndərimizin gərgin əməyi ilə hasilə gəlmiş və 1999-cu ildə həyata keçirilməsinə başlanılmış "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı" ölkəmizin təhsil quruculuğunda çox mühüm rol oynamış, indi də oynamaqdadır. Bu Proqramda təhsilimizin uzun illər üçün nəzərdə tutulmuş konsepsiyası və strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturlarında, idarə edilməsində, məzmununda, maddi-texniki bazanın möhkəmləndirilməsində islahatların aparılması uğurla həyata keçirilir. Son illər möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü ilə milli təhsili inkişaf etdirmək və dünya standartları səviyyəsinə yüksəltməkdən ötrü misilsiz işlər görülmüş, zamanın tələblərinə uyğun olaraq qanunlarda və normativ sənədlər üzərində yaradıcılıqla iş aparılmış, mükəmməl təhsil sistemi qurulmuşdur.

Hazırda milli təhsilimizin tərəqqisi göz qabağındadır. Bunu Cəlilabad rayonunun timsalında da aydın görmək mümkündür. Respublika Prezidenti cənab İlham Əliyev Cəlilabadda olarkən demişdi: "İndi biz Cəlilabada yeni həyat veririk. Hər yer abadlaşır, hər yer gözəlləşir. Bunlar Cəlilabadın ümumi inkişafının dinamikasını göstərir. Dünyanın istənilən ölkəsinə gedib baxmaq olar, amma bu gözəlliyi orada görmək mümkün deyildir".

Ölkə rəhbərinin bu yüksək qiymətindən ruhlanan cəlilabadlılar rayonun sosial-iqtisadi inkişafı üçün bütün imkanlardan maksimum istifadə etmiş, tarazlı inkişafa nail olmuş, quruculuq işlərini daha da genişləndirmişlər. Bunun əsas səbəblərindən biri də odur ki, rayonda sabitlik dönməz xarakter almışdır. Pedaqoji kollektivlərdə, bütün məktəblərimizdə və uşaq tərbiyə müəssisələrində təlim-tərbiyənin inkişaf etdirilməsinə, kadrların peşə hazırlığının yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir. Son illər rayonun təhsil ocaqlarında milli kurikulumun, informasiya və tədris texnologiyalarının tətbiqi sahələrində əvvəllər heç vaxt müşahidə etmədiyimiz uğurlar əldə edilmişdir. Məşğələlərin yüksək peşəkarlıqla həyata keçirilməsi, şagirdlərin müxtəlif bilik və idman yarışlarında, müsabiqələrdə fəal iştirakı, bu tədbirlərin gücləndirilməsi işimizdə başlıca cəhətlərə çevrilmişdir. Aparılmış məqsədyönlü işlər nəticəsində təhsildə daim hərəkətdə olan durum ciddi nəzarətdə saxlanılmışdır. Xüsusilə yeniyetmələrin və gənclərin təhsildən yayınmaması, onların fəal əməyə cəlb olunması sahəsində tədbirləri genişləndirmişik.

Müasir Azərbaycanı haqlı olaraq ümummilli liderimizin şah əsəri sayırlar. Biz bu əsəri sevməklə yanaşı, qorumalı və əziz tutmalı, gələcək nəsilləri də bu ruhda tərbiyə etməliyik. İndiki və gələcək nəsillər xalqımızın fədakar oğlunun müqəddəs irsini, həyat və fəaliyyətini, vəsiyyətlərini dərindən öyrənməli və onun göstərdiyi yolla getməlidirlər. Bu yol doğma Vətənimizi xoşbəxt gələcəyə aparan yeganə düzgün yoldur.

**Rəşad SALMANOV,**
**Cəlilabad Rayon Təhsil Şöbəsinin məsləhətçisi.**